© N.H.Əyyubov, N.B.Paşayeva, 2006

# GƏNCƏ-QAZAX İQTİSADİ RAYONU ŞƏHƏRLƏRİNİN FORMALAŞMASI VƏ PERSPEKTİV İNKİŞAFI

**N.H.Əyyubov, N.B.Paşayeva**

*Azərbaycan MEA akad. H.Ə.Əliyev adına Coğrafiya İnstitutu*
*AZ 1143, Bakı, H.Cavid prospekti, 31*

Məqalədə Gəncə-Qazax iqtisadi rayonunda şəhər məskunlaşmasının formalaşma və inkişaf xüsusiyyətləri araşdırılır. İqtisadi və sosial inkişaf fonunda şəhərlərin və qəsəbələrin demoqrafik inkişafı tədqiq edilir.

Müstəqillik dövründə baş verən ictimai-siyasi, sosial-iqtisadi dəyişikliklərin və gərginliklərin şəhərlərin inkişafına təsiri müəyyənləşdirilir. Onların istinad-dayaq karkasları kimi funksiyalarını yerinə yetirə bilmədikləri aşkarlanır. Mühüm hərbi-strateji mövqeyi ilə əlaqədar şəhər və qəsəbələrin iqtisadi rayon və respublika miqyasında səmərəli funksiya göstərmələri üçün əsas inkişaf istiqamətləri müəyyənləşdirilir. Gəncə şəhərinə regional mərkəz kimi daha çox əhəmiyyət verilir.

Gəncə-Qazax iqtisadi rayonu Azərbaycan Respublikasının qədim sivilizasiya ocaqlarının təşəkkül tapdığı ərazilərdən biridir. Azərbaycanın ən qədim şəhərlərindən olan Gəncə şəhər kimi VII əsrdə formalaşmışdır. Yaşayış məntəqəsi kimi isə onun tarixi daha qədimdir. Yaranma tarixinə görə regionun ikinci qədim şəhəri Qazaxdır. Bu yaşayış məntəqəsi 1909-cu ildə şəhər statusu almışdır. Gəncə-Qazax iqtisadi rayonunun digər məntəqələri şəhər statusunu sovet hakimiyyəti illərində qazanmışdır.

Hal-hazırda Gəncə-Qazax iqtisadi rayonunun şəhər məskunlaşması 11 şəhər və 18 şəhər tipli qəsəbə ilə təmsil olunur. Bunlar respublikanın bütün şəhər və qəsəbələrinin 19%-i deməkdir. Onlarda Azərbaycanın şəhər əhalisinin 500,1 min nəfəri və ya 12%-dən çoxu yaşayır. İqtisadi rayonun ümumi əhalisinin 46%-ni şəhər əhalisi təşkil edir.

Tədqiq etdiyimiz ərazidə şəhər yaşayış məntəqələri qeyri-bərabər paylanmışdır. Onlar əsasən regionun düzən hissəsində, beynəlxalq nəqliyyat yollarının və əsas sosial-iqtisadi potensialın cəmləndiyi ərazidə yerləşirlər. Kürün sağ sahilindən dəniz səviyyəsindən 400-500 metr hündürlüyə qədər olan sahədə bütün şəhər əhalisinin 90%-i, şəhər yaşayış məntəqələrinin isə 65%-ə qədəri cəmlənmişdir. İqtisadi rayonun düzənlik hissəsində Gəncə, Qazax, Tovuz, Ağstafa, Şəmkir, Xanlar, Goranboy, Naftalan şəhərləri və 10 şəhər tipli qəsəbə yerləşir.

İqtisadi rayonun şəhər yaşayış məntəqələrinin formalaşmasına və inkişafına şəhərlərin nəqliyyat-coğrafi mövqeyi əhəmiyyətli təsir etmişdir. Xüsusən də Bakını Tbilisi ilə birləşdirən, 1883-cü ildə çəkilmiş dəmir yolu xətti iqtisadi rayonun xarici və daxili iqtisadi əlaqələrini genişləndirməklə şəhərlərin inkişafında müsbət rol oynamışdır. Təsadüfi deyildir ki, əksər şəhər və qəsəbələr əlverişli nəqliyyat-coğrafi mövqeyə malikdir. Şəhər və qəsəbələrdən 19-nun bilavasitə dəmir yolu əlaqəsi yoxdur, lakin onlardan 8-i dəmir yolu xəttindən cəmi 5-10 km uzaqda yerləşir. Buna baxmayaraq, regionun bütün şəhər və qəsəbələri inkişaf etmiş avtomobil yolu ilə sıx bağlıdır.

Şəhər yaşayış məntəqələrinin sayının çoxalması onların ərazidə sıxlığının artması ilə müşayiət olunmuşdur. Əgər 1920-ci ildə hər 2050 $km^2$ iqtisadi rayon ərazisinə bir şəhər düşürdüsə, son illərdə bu göstərici 492 $km^2$, mənimsənilmiş ərazidə isə 241 $km^2$-ə bir şəhər düşmüşdür. Nisbətən sıx şəhər şəbəkəsinə baxmayaraq, onlar ərazidə qeyri-bərabər yayılmışdır. İqtisadi rayonun şərqində qərbinə nisbətən daha çox şəhər və qəsəbə cəmlənmişdir. Yüksək iqtisadi potensiala malik Gəncə-Daşkəsən sənaye qovşağının burada yerləşməsi şəhər və qəsəbələrin inkişafına həlledici təsir göstərmişdir. Təkcə respublika əhəmiyyətli deyil, həm də beynəlxalq əhəmiyyətli iri sənaye müəssisələrinin burada yerləşməsi Gəncə şəhərinin və onun ətrafının iqtisadi və sosial inkişafına güclü təsir etmişdir. Gəncənin iqtisadi və sosial funksiyasının mürəkkəbləşməsi onun yaxın ətrafının bu funksiyanın müəyyən hissəsini öz üzərinə götürməsinə gətirib çıxrıb. Bu da ətrafdakı şəhər və qəsəbələrin iqtisadi və demoqrafik inkişafına müəyyən kömək etmişdir. İqtisadi rayonun qərbində belə kompleks amillərin olmaması öz mənfi təsirini göstərmişdir.

Dağlıq ərazidə şəhəryaradıcı amillər dağmədən sənayesinin inkişafı, təsərrüfat-təşkilat funksiyası və qismən istirahət-turizm təsərrüfatı

olmuşdur. Daşkəsənin dəmir filizi ehtiyatlarının çıxarılması və onun ilkin emalı Daşkəsən şəhəri və onun ətrafındakı qəsəbələrin formalaşmasına, inkişafına həlledici təsir etmiş, burada sıx şəhər şəbəkəsinin yaranmasına səbəb olmuşdur. Lakin son illərdə (1990-cı ildən sonra) dəmir filizi hasilatının və emalının keçid dövrünün çətinlikləri ilə əlaqədar dayandırılması bu şəhər və qəsəbələrin inkişafına mənfi təsir etməkdədir.

Digər dağlıq ərazilərdə – inzibati cəhətdən Gədəbəy, Şəmkir və Tovuzun dağlıq hissələrində şəhəryaradıcı təsərrüfat sahələrinin olmaması şəhər və qəsəbələrin formalaşmasına mənfi təsir göstərmişdir. Yalnız Gədəbəy şəhərinin inzibati-idarəetmə, sosial-mədəni mərkəz rolunu oynaması onun şəhər kimi inkişafına öz təsirini göstərmişdir.

İqtisadi rayonun şəhər və qəsəbələrinin inkişafına Cənubi Qafqaz respublikaları arasındakı istehsal-iqtisadi, ticarət əlaqələri də yaxşı təsir etmişdir. Əlverişli nəqliyyat-coğrafi mövqe iqtisadi rayonun düzən şəhər və qəsəbələrini Gürcüstanın və Azərbaycanın başqa şəhərləri ilə əlaqələndirir. Ermənistanın həmişə işğalçılıq mövqeyində durması belə əlaqələrin davamlı olmasının qarşısını alır.

Ümumiyyətlə, Gəncə-Qazax iqtisadi rayonunun qərb hissəsinin üç Cənubi Qafqaz respublikalarının qovşağında yerləşməsi burada urbanizasiya prosesinə müsbət təsir etmiş, mərkəzi Qazax şəhəri olmaqla regionda ikinci lokal şəhər qruplaşmasının yaranmasına səbəb olmuşdur. Qeyd etmək lazımdır ki, iqtisadi rayonun qərbində yerləşən bütün şəhər və qəsəbələr Gürcüstanın Tbilisi-Rustavi aqlomerasiyasının müsbət təsirinə məruz qalmışdır. Xüsusən də sovet hakimiyyəti illərində sıx istehsal-iqtisadi, ticarət, sosial-mədəni əlaqələrin olması şəhər və qəsəbələrin inkişafına müsbət təsir göstərmişdir. Xeyli əmək ehtiyatları Tbilisi və Rustavinin sənaye müəssisələrində işlə təmin olunurdular, hətta onların müəyyən hissəsi daimi yaşayış yerlərini dəyişmədən belə bu prosesdə iştirak edirdilər. Sovetlər İttifaqının dağılması, hər iki respublikanı bürüyən iqtisadi böhran, Gürcüstanın daha çox iqtisadi tənəzzülü, qeyri-stabil ictimai-siyasi ab-hava bu əlaqələrin də zəifləməsinə səbəb oldu.

Gəncə-Qazax iqtisadi rayonunun şəhər məskunlaşmasının formalaşmasında onların mikro, mezo və makro mövqelərində bu və ya digər dərəcədə rol oynamış və oynamaqdadır.

İqtisadi rayonun şəhərlərinin 90%-nin mikromövqeyi onların ərazicə inkişafına müsbət təsir edir. Yalnız sırf parçalanmış relyefə malik dağlıq ərazidə yerləşən şəhər və qəsəbələrin (məsələn, Daşkəsən və Gədəbəy şəhərləri, Daşkəsən qəsəbəsi və s.) məkanca böyümə imkanları məhduddur. Kəskin parçalanmış relyef, yamacların dikliyi, sürüşmə ehtimalları və s. onların ərazicə inkişaf imkanlarını çətinləşdirir, əlavə xərclər tələb edir. Düzən və dağətəyi ərazilərin şəhər və qəsəbələri isə şəhər tikintisi arealını genişləndirmək imkanına malikdir. İqtisadi rayonun şəhərlərinin formalaşmasında və inkişafında həmçinin onların mezomövqeyi böyük rol oynamışdır. Regionun inzibati mərkəzləri olan əksər böyük şəhərləri, hər rayonun ərazisinin mənimsənilmə və sahəsinin böyüklüyü ilə müəyyən olunan mezomövqeyi şəhəryaradıcı faktor kimi əhəmiyyətli olmuşdur. Bu qəbildən olan bir sıra şəhərlərin istehsal-iqtisadi əlaqələri inzibati rayonların sərhədlərindən kənara çıxmır.

İqtisadi rayonun sənaye-nəqliyyat şəhərlərinin formalaşmasında, daha böyük regionu əhatə edən mezomövqe həlledici rol oynamışdır. Dağmədən, yeyinti sənayesi və nəqliyyat mərkəzi olan şəhərlərin bəziləri (məsələn, Daşkəsən, Gəncə və s.) bunlara aiddir. Daşkəsən Rustavi metallurgiya zavodunu dəmir konsentratı, Gəncə alüminium zavodunu isə alunitlə təmin etmiş və bu istehsal iqtisadi əlaqələr hesabına Daşkəsən özü və ətraf qəsəbələr inkişaf etmişdir.

Ağstafa şəhərinin təsərrüfat strukturunda nəqliyyat aparıcı rol oynayır. Əlverişli nəqliyyat-coğrafi mövqe hesabına bütün Cənubi Qafqaz respublikaları ilə istehsal-iqtisadi əlaqələr Ağstafa vasitəsilə həyata keçirilir. Azərbaycan və Qazaxıstandan Qərbi Avropa bazarlarına daşınan xam neftin və müxtəlif neft məhsullarının da buradan keçməsi şəhərin iqtisadi, sosial inkişafında əhəmiyyətli rol oynayır.

Ümumiyyətlə, Gəncə-Qazax iqtisadi rayonunda şəhər məskunlaşmasında baş verən dəyişiklikləri aşağıdakı cədvəl üzrə izləmək, təhlil etmək olar. Cədvəldən görünür ki, əvvəllər olduğu kimi, hazırda da şəhər məskunlaşmasının çoxunu kiçik şəhərlər- əhalisinin sayı 10 minədək olan şəhər yaşayış məntəqələri təşkil edir. Onların payına, 2003-cü ilin məlumatına görə, 22 şəhər və qəsəbə düşür ki, bu da bütün iqtisadi rayonun şəhər yaşayış məntəqələrinin 75,8%-i deməkdir. Lakin onlarda ümumi iqtisadi rayonun şəhər əhalisinin 18,2%-i yaşayır.

Əhalisinin sayı 10-20 min nəfər olan orta şəhərlər 1979-cu ildən bu kateqoriyaya daxil olmuşdur. Bu qrup şəhərlərə 5 şəhər aiddir. Onlar bütün şəhərlərin 17,3%-ni və şəhər əhalisinin 14,7%-ni özündə cəmləşdirir.

Əhalisinin sayı 20-50 min nəfər olan şəhər kateqoriyasına yalnız Şəmkir şəhəri aiddir. Onun payına bütün şəhər yaşayış məntəqələrinin 3,4%-i və iqtisadi rayon şəhər əhalisinin 70%-i düşür.

Əhalisinin sayı 100-500 min nəfər olan şəhərlər kateqoriyasına yalnız bir şəhər – Gəncə şəhəri aiddir. Onun payına bütün şəhər əhalisinin böyük əksəriyyəti – 60%-i düşür, halbuki Gəncə bütün iqtisadi rayon şəhərlərinin 3,4%-ni təşkil edir. İqtisadi rayonun kiçik və orta şəhərlərinin ətraf ərazilərinin, xüsusən də inzibati rayon miqyasında nisbətən sürətli inkişafı, Gəncə şəhərinin əhalisinin ümumi iqtisadi rayonun şəhər əhalisinin içərisindəki xüsusi çəkisinin azalması ilə müşayiət olunur. Məsələn, əgər 1939-cu ildə Gəncədə ümumi şəhər əhalisinin 79%-i , 1959-cu ildə 68%-i , 1989-cu ildə 63,8%-i yaşayırdısa, 2003-cü ildə bu göstərici 60% olmuşdur (1, 2-ci şəkillər).




**1-ci şəkil.** Gəncə şəhərində əhalinin sayının dinamikası (min nəfər)




**2-ci şəkil.** Gəncə şəhəri əhalisinin Gəncə-Qazax iqtisadi rayonunun şəhər əhalisi içərisində payının dinamikası (%-lə)

Bu və ya digər regionda şəhərlərin formalaşması, inkişafı müəyyən şəraitdə müxtəlif iqtisadi faktorların təsiri nəticəsində baş verir. Məhz bu səbəbdən Gəncə-Qazax iqtisadi rayonunun şəhərləri müxtəlif funksiyalar yerinə yetirir. İqtisadi rayonun şəhərlərini funksiyalarına görə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Çoxfunksiyalı; 2. Sənaye şəhərləri: a) hasilat sənayesi və elektroenergetika mərkəzləri, b) emaledici sənaye mərkəzləri; 3. Sənaye-kənd təsərrüfatı; 4. Sənaye və inzibati; 5. Nəqliyyat-sənaye.

Çoxfunksiyalı şəhərə Gəncə aiddir. Burada iqtisadi rayon əhalisinin 30%-ə qədəri yaşayır. Bu tipə aid olan şəhərlər, adətən, iri sənaye, nəqliyyat, maliyyə-kredit, ticarət-paylayıcı, mədəni-maarif mərkəzləri olub, təsirləri daha geniş əraziləri əhatə edir. Onlar həm də inzibati-siyasi mərkəz kimi tanınırlar. Gəncə Azərbaycanın ikinci böyük, Cənubi Qafqazın isə dördüncü sənaye, mədəni-maarif mərkəzi kimi fərqlənir. Keçən əsrin 60-cı illərinə kimi Gəncənin sənaye strukturunun təşəkkülü və inkişafı birtərəfli olub, əsasən yüngül və yeyinti sənayedən ibarət idi. Sonrakı illərdə şəhərin sənaye strukturu köklü surətdə dəyişdi, çoxlu, o dövr üçün mütərəqqi olan yeni sənaye sahələri yarandı. Lakin 1990-cı ildən sonra iqtisadi və sosial, ictimai-siyasi, hərbi-siyasi həyatda baş verən köklü dəyişikliklər, bütün təsərrüfat sahələrində olduğu kimi, şəhərin də iqtisadi bazasında öz əksini tapdı, daha doğrusu, şəhərlərin iqtisadi bazasında geriləməyə səbəb oldu. Məsələn, 1990-2001-ci illər ərzində sənayedə məşğul olan əhalinin sayı 55,6% azaldı, sənayedə işləyənlərin xüsusi çəkisi isə 14%-ə qədər aşağı düşdü.

Gəncə respublikanın həm də ikinci böyük nəqliyyat mərkəzidir. Nəqliyyat sahəsinə əhəmiyyətli miqdarda əmək ehtiyatları cəlb olunmuşdur. Şəhərdən beynəlxalq əhəmiyyətli dəmir yolu və şose yolları keçir. Nəqliyyat amili şəhərin inkiaşfında mühüm rol oynayır. Maddi istehsalın digər sahələri ilə müqayisədə nəqliiyyat sahəsinin həmişə dinamik inkişafı şəhərin inkişafında şəhəryaradıcı faktor kimi müsbət rol oynamışdır.

Gəncənin inkişafında maddi-istehsalla yanaşı, qeyri-istehsal sahəsi də əhəmiyyətli dərəcədə iştirak edir. Bu sahədə səhiyyə, təhsil, elm xüsusilə fərqlənir. Hal-hazırda səhiyyədə çalışanların sayı sənayedə məşğul olan əhalidən sonra ikinci yeri tutur.

Tikinti işlərinə tələbatın böyüklüyü həmişə bu sahədə əhəmiyyətli miqdarda işçi qüvvəsinin çalışmasına səbəb olmuşdur. Əhalinin mənzil-kommunal şəraitini yaxşılaşdırmaq ehtiyacı və yeni sənaye-sosial infrastruktur obyektlərin inşası tikinti sənayesinin davamlı inkişafına səbəb olmaqla şəhərin inkişafına müsbət təsir göstərməkdədir.

Gəncənin təsərrüfat strukturunun yenidən qurulması, mövcud müəssisələrin yeni texnologiyalar hesabına təkmilləşdirilməsi və dünya standartları səviyyəsinə uyğun müxtiəlif çeşidli məhsulların istehsalı şəhərin iqtisadi və sosial inkişqafına müsbət təsir edəcəkdir. Bu baxımdan Gəncə Avtomobil zavodunun işə düşməsi müstəsna rol oynaya bilər.

Hasilat sənayesi mərkəzlərinə Daşkəsən şəhəri (9,4 min nəfər), Alunitdağ, Quşçu qəsəbələri aiddir. Onlar sovet hakimiyyəti illərində şəhər yaşayış məntəqəsi statusu almışlar. Lakin 1990-cı ildən sonra dəmir filizi hasilatının dayandırılması onunla bağlı olan digər infrastrukturların da tənəzzülünə səbəb olmuş və onların inkişafına mənfi təsir etmişdir.

Kür qəsəbəsi (6,5 min nəfər) Şəmkir SES-in tikintisi və fəaliyyəti əsasında yaranmışdır. Onun iqtisadi bazasında və sosial infrastrukturunda bütün digər şəhər və qəsəbələrdən fərqli olaraq tənəzzül müşahidə edilmir.

Emaledici sənaye mərkəziləri kimi yaranan Qazanbulaq, Dəllər və Zəyəm qəsəbələrinin iqtisadi bazasını bir-iki müəssisə təşkil edir. Lakin onların inkişafında da tənəzzül müşahidə edilir. Onların demoqrafik inkişafı çox ləng gedir.

İqtisadi rayonun sənaye-kənd təsərrüfatı şəhərləri qrupuna Qazax (19,0 min nəfər), Şəmkir (35,1 min nəfər), Tovuz (12,8 min nəfər), Xanlar (17,6 min nəfər) və Goranboy (7,1 min nəfər) yaşayış məntəqələri daxildir. Bu şəhərlərin iqtisadi bazasını yüngül, yeyinti və tikinti sənayesi təşkil edir və adı çəkilən istehsal sahələrində əsasən ətraf ərazilərdə istehsal olunan kənd təsərrüfatı məhsulları emal olunur.

Kənd təsərrüfatı-sənaye şəhər yaşayış məntəqəlrinə Qovlar (12,4 min nəfər), Vurğun (2,4 min nəfər), Çinarlı (6,3 min nəfər), Nəbiağalı (5,6 min nəfər), Qarayeri (5,5 min nəfər) qəsəbələri aiddir. Burada əsasən kənd təsərrüfatı, qismən sənaye əməyi ilə məşğul olurlar.

Sırf təsərrüfat-təşkilat mərkəzlərinə Gədəbəy (1,8 min nəfər) və Aşağı Ağcakənd (0,2 min nəfər) aiddir. Onlar eyniadlı inzibati rayonların mərkəzi kimi yaranmış və ətraf yaşayış məntəqələrinin uzun müddət təsərrüfat-təşkilat, ticarət-paylayıcı, mədəni-maarif mərkəzləri olmuşlar. Lakin bu funksiya təsərrüfat müəstəqtilliyi veril-

dikdən sonra əhəmiyyətli dərəcədə zəifləmişdir. Qeyd etmək lazımdır ki, inzibati idarəetmə mərkəzi funksiyası bir çox şəhər və qəsəbələrin formalaşmasında, inkişafında mühüm rol oynamışdır. Lakin sosialist təsərrüfat sisteminin dağılması, yeni kapitalist təsərrüfatı-bazar iqtisadiyyatının yaranması insanlara, istehsalçılara fəaliyyət müstəqilliyi verməklə inzibati idarəetmə, təsərrüfat-təşkilat funksiyasının açılmasına səbəb olmuş və bunun şəhəryaradıcı amil kimi rolunun azalmasına gətirib çıxarmışdır.

Nəqliyyat-sənaye şəhərinə eyniadlı inzibati rayonun mərkəzi Ağstafa (12.1 min nəfər) aiddir. Ağstafa şəhəri Gürcüstanla Azərbaycanın son nəqliyyat-təmas məntəqəsi olmaqla yükvurma və boşaltma əməliyyatlarında əhəmiyyətli dərəcədə iştirak edir. Şəhərin sənaye müəssisələrində böyük tənəzzül müşahidə edilsə də, nəqliyyat və onunla bağlı olan sahələrdə dinamik inkişaf müşahidə olunur. Son illərdə yük daşımaların çoxalması, ümumiyyətlə, Avropa-Qafqaz-Asiyanı birləşdirən İpək Yolunun bərpası və onun bilavasitə buradan keçməsi Ağstafanın nəqliyyat qovşağı kimi əhəmiyyətini daha da artırmaqda, şəhərin iqtisadi-demoqrafik inkişafında müsbət rol oynamaqdadır.

İqtisadi rayonda kurort-istirahət məntəqələrinə Naftalan şəhəri və Hacıkənd qəsəbəsi daxildir. Naftalanın əsas şəhəryaradıcı faktoru müalicə neftinə əsaslanan müalicə-sanatoriya müəssisələridir. Hacıkənd qəsəbəsi əlverişli təbii şəraitdə, gözəl meşə landşaftında yerləşərək istirahət-turizm mərkəzidir.

Gəncə-Qazax iqtisadi rayonu şəhərlərinin iqtisadi bazasının iqtisadi-coğrafi təhlili göstərir ki, bütün şəhər və qəsəbələrin iqtisadi və sosial inkişaf səviyyəsi demoqrafik inkişafdan əsaslı surətdə geri qalır. Sənaye əsas şəhəryaradıcı faktor kimi çox zəif inkişaf etmişdir. Ona görə də şəhər və qəsəbələrin müasir təsərrüfat strukturu və müasir inkişaf səviyyəsi onların əsil şəhər yaşayış məntəqələri kimi səmərəli inkişafına mane olur, ətraf ərazilərin istinad-dayaq mərkəzləri kimi normal fəaliyyət göstərməsinə imkan vermir.

Ümumiyyətlə, iqtisadi rayonun şəhər məskunlaşmasının inkişaf xüsusiyyəti və müasir vəziyyəti onların daha səmərəli fəaliyyət göstərməsini təmin etmək üçün aşağıdakı iqtisadi-coğrafi istiqamətlərə əsaslanmağını tələb edir:

1. Şəhər və qəsəbələrin perspektiv inkişafına bu regionun strateji hərbi-coğrafi mövqedə yerləşməsi konteksində baxılmalıdır. Sərhəd coğrafi mövqe, xüsusilə də işğalçı Ermənistanla böyük məsafədə həmsərhəd mövqe bu regionun ölkənin başqa regionları ilə müqayisədə daha sürətli sosial-iqtisadi inkişaf etdirilməsini tələb edir.

2. İqtisadiyyatın yenidən qurulmasına, həyat şəraitinin yaxşılaşdırılmasına kömək etmək üçün müəyyən güzəştlərin verilməsi (xüsusilə də yanacaq-energetika sahəsində) məqsədəuyğundur. Yanacaq və enerji ehtiyatları ilə təminat tam davamlı və ucuz olmalıdır. İqtisadi və sosial dirçəlişdə həlledici rol oynaya bilər.

3. Şəhərlərin təsərrüfat strukturu yüksək əmək tutumlu, müasir tələblərlə ayaqlaşan emal-edici sənaye sahələri və müvafiq sosial infrastruktur hesabına təkmilləşdirilməli, iqtisadi və sosial bazaları demoqrafik potensiala uyğunlaşdırılmalı, tarazlı inkişafa nail ounmalıdır. Şəhər və qəsəbələr elə bir iqtisadi və sosial bazaya malik olamalıdırlar ki, onlar bütün ətraf ərazilərin yüksək səviyyəli istinad-dayaq karkasları funksiyasını yerinə yetirə bilsinlər.

4. Dağlıq və Ermənistanla həmsərhəd yaşayış məntəqələrinin müasir demoqrafik inkişaf xüsusiyyəti, sosial-iqtisadi həyat şəraiti əhalinin yerlərdə saxlanılma karkaslarının daha tez yaradılmasını tələb edir.

5. Təkcə Gəncə-Qazax iqtisadi rayonunun deyil, bütöv Azərbaycanın qərb hissəsində əsas sosial iqtisadi mərkəzi kimi Gəncə şəhərinin sürətli iqtisadi inkişafı təmin edilməlidir. Gəncənin sosial-iqtisadi inkişaf tempi Bakıdan geri qalmamalıdır. Gəncə respublikanın ikinci böyük makro-regional mərkəzi statususuna uyğun inkişaf etdirilməlidir. O, həm də respublikanın qərbi ilə şərqi arasındakı əhalinin cəmlənməsi proporsiyasındakı fərqin azaldılmasında müsbət rol oynamalıdır.

### ƏDƏBİYYAT

Azərbaycan respublikasının siyahıyaalınması. 1999. I hissə. Səda. Bakı.

Azərbaycan respublikasının konstruktiv coğrafiyası. 2000. II cild.

Azərbaycanın statistik göstəriciləri. 2000. Səda. Bakı.

Azərbaycanın statistik göstəriciləri. 2001. Səda. Bakı.

MEHRƏLİYEV, E.Q., ƏYYUBOV, N.H., M.O. 1988. Azərbaycan SSR-də əhalinin məskunlaşması məsələləri. Elm, Bakı, 99.

***Məqaləyə c.e.n. S.Nağıyev rəy vermişdir***